XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR

LERİK

Azərbaycan dünyaya günəş kimi doğacaq.
Heydər ƏLİYEV

№ 03-05 (6066-6067) ✸ 27 Fevral 2023-cü il ✸ Qəzet 1937-ci ildən çıxır ✸ Rayonun ictimai-siyasi qəzeti ✸ Qiyməti 40 qəpik

"HEYDƏR ƏLİYEV İLİ" ÇƏRÇİVƏSİNDƏ ULU ÖNDƏRİN ÇOXSAHƏLİ FƏALİYYƏTİ İLƏ ƏLAQƏDAR KƏLAMLARI

"Dövlət istiqlaliyyətinin əldə edilməsi Azərbaycan xalqı üçün tarixi hadisədir və bizim vəzifəmiz, məqsədimiz istiqlaliyyətimizi, beynəlxalq mövqelərimizi hər vasitə ilə möhkəmləndirməkdən ibarətdir."

"Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixi vardır."

"Azərbaycan müstəqil dövlətdir və indən belə heç vaxt hər hansı başqa dövlətin tərkibinə daxil olmamalı, kiminsə vassalı, yaxud müstəmləkəsi olmamalıdır."

"Azərbaycanı parçalamaq Azərbaycanın daxilində və xaricində olan düşmənlərin uzun illərdən, bəlkə də əsrlərdən bəri ən bəd niyyəti, istəyi, arzusu olmuşdur."

"Azərbaycan bir müstəqil dövlət kimi öz taleyinin sahibi, öz torpaqlarının sahibi, öz hüquqlarının sahibi olacaq və gələcək firavan həyatını özü quracaqdır."

"Əgər indi dövlət müstəqilliyimiz, milli azadlığımız körpə uşağın ilk addımlarına bənzəyirsə, bir neçə ildən sonra dövlətimiz, ölkəmiz, xalqımız güclü, iradəli addımlarla irəliləməli, böyük inamla hərəkət etməlidir."

"Azərbaycanın müstəqil dövlət olması, xalqımızın azadlığa çıxması tarixi hadisələrdir və biz bunları qiymətləndirməli, əldə edilmiş nailiyyətləri əbədiləşdirməliyik. Bu, istər bizim, istərsə də gələcək nəsillərin qarşısında duran strateji vəzifədir."

"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir."

"Azərbaycan dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti - dövlət müstəqilliyimizi biz daim qoruyub saxlayacaqdır."

"Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir."

"Biz dərk etməliyik, anlamalıyıq ki, xoşbəxt bir mərhələyə gəlib çatmışıq, milli azadlığa nail olmuşuq, müstəqil dövlətimiz var, azad, müstəqil ölkədə yaşayırıq."

QARDAŞ TÜRKİYƏYƏ DƏSTƏK

Fevralın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu ünvanlayıb: "Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi. Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildiririk". Dövlətimizin başçısı faciə ilə əlaqədar türk həmkarına, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verib, yaralananlara şəfa diləyib. Prezident İlham Əliyev, həmçinin zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıb;

Fevralın 6-da Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon zəngi etmişdir: "Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbər Azərbaycanı çox sarsıtdı və kədərləndirdi"yini bildirən Azərbaycan Prezidenti qeyd edib ki, bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır;

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib: "Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladım. Allah faciə zamanı həlak olanlara rəhmət eləsin. Onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralananların və xəsarət alanların tezlikdə şəfa tapmasını arzulayıram. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!";

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olub. Türkiyədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib və çıxış edib.

Azərbaycanın qardaş Türkiyəyə zəlzələ ilə əlaqədar yardımları davam edir.

YÜKSƏK İDEYALI GƏNCLƏR FORMALAŞIB

Azərbaycan Gəncləri Günü münasibətilə rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov rayonun ictimai həyatında, təhsil, idman, elm və mədəniyyət sahələrində fərqlənən bir qrup gənclə görüşüb.

Görüşdə rayon icra hakimiyyətinin başçısı çıxış edərək onları Azərbaycan Gəncləri Günü münasibətilə gəncləri təbrik edib.

Bildirib ki, Ulu Öndər tərəfindən 2 fevral 1997-ci il tarixində imzalanmış Sərəncama əsasən fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxddan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda Gənclər Günü təntənəli şəkildə qeyd edilməyə başlanıb. Azərbaycan gənclərinin vətənə sədaqət ruhunda tərbiyə edilməsi məsələsi Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətlərindən biri olub. O, vurğulayırdı: "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir".

Dövlət gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələdə daha da inkişaf etdirilib. Cənab Prezidentin gənclərlə bağlı verdiyi tövsiyələr, imzaladığı fərman və sərəncamlar ölkə rəhbərliyinin Azərbaycan gənclyinə yüksək dəyər verdiyinin təzahürüdür. Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi olaraq bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə, dövlətçilik məfkurəsinə, yüksək ideyalara malik gənclər formalaşıb. Gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı Lerik rayonunda da zəruri tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır.

Rayonun ictimai həyatında, təhsil, idman, elm və mədəniyyət sahələrində fərqlənən bir qrup gəncə rayon icra hakimiyyətinin fəxri Fərmanı təqdim edilib.

VƏTƏNDAŞLAR QƏBUL EDİLDİ

Rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov 01fevral 2023-cü il tarixində Dəstər kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin Bradi, Dəs-tər, Dızdipok, Hamarat və Siyov kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin Hovil, Akuşəpəşta, Xəlifəhoni, Qılıqlov və Siyov kəndlərinin sakinləri ilə səyyar-görüş keçirib.

Səyyar qəbulda RİH başçısı aparatının, rayonun hüquq-mühafizə orqanlarının və aidiyyəti təşkilatlarının məsul şəxsləri, eləcə də kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

İcra hakimiyyətinin başçısı ölkə rəhbərliyinin müvafiq tapşırığına uyğun olaraq vətəndaşların səyyar qəbullarının keçirilməsinin əhəmiyyətindən söz açaraq bildirib ki, qarşıya qoyulmuş əsas vəzifə, vətəndaşları narahat edən məsələləri yerində öyrənmək və qanunamüvafiq qaydada həlli tədbirlərini müəyyən etməkdən ibarətdir.

Həmçinin rayon rəhbəri Elektron Hökumətin İnkişafı Mərkəzi tərəfindən yaradılmış Rəqəmsal İcra Hakimiyyəti portalı barədə vətəndaşlara məlumat verərək, xidmətin əlçatanlıq və üstünlüklərini qeyd edib və https://rih.gov.az/ portalından istifadə etmələrini tövsiyə edib.Səyyar görüş-qəbulda vətəndaşların səsləndirdikləri problemlər ayrı-ayrılıqda dinlənilib, problemlərin və onların həlli yollarının araşdırılması üçün görüləcək tədbirlər qeyd olunaraq müvafiq qurumlara tapşırıqlar verilib.

Zərikməco və Hamarmeşə kəndlərində də vətəndaşlarla səyyar görüş-qəbullar keçirilib.

Qəbul zamanı vətəndaşların şikayət və təklifləri dinlənilib, onların həlli üçün müvafiq qurumlara göstəriş verilib.

XOCALI FACİƏSİ UNUDULMUR

Xocalı soyqırımı zamanı qətlə yetirilmiş soydaşlarımızın əziz xatirəsini faciənin 31-ci ildönümündə yad etmək məqsədilə Lerik Rayon İcra Hakimiyyətinin dəstəyilə ümumrayon tədbiri keçirilib.

Tədbirdə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq, Xocalı şəhərində dinc əhaliyə misli görünməmiş qəddarlıqla hücum etməsindən bəhs edən sənədli film nümayiş etdirilib.

Rayonun fəal gəncləri tərəfindən anım gününə həsr edilən Xocalı soyqırımı ilə əlaqədar səhnələdirilmiş tamaşa göstərilmişdir.

TAPŞIRIQLAR VERİLDİ

Lerik Rayon İcra Hakimiyyətinin İnzibati idarə binasının qəbul otağında rayon icra hakimiyyəti başçısı Əkbər Abbasov tərəfindən rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə vətəndaşların qəbulu keçirilib.

Ümumilikdə rayon icra hakimiyyəti başçısı tərəfindən 21 vətəndaş, o cümlədən şəhid ailələri, qazilər və müharibə iştirakçıları növbədənkənar qəbul edilib.

Qəbulda rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov vətəndaşlar tərəfindən səsləndirilən müraciətlərin araşdırılması və icrası ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verib.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA ORDU QURUCULUĞU

Bizim ordumuz bizim qururumuzdur, müstəqilliyimizi şərtləndirən amildir.
İlham Əliyev

1993-cü ildə yenidən öz müstəqilliyinə qovuşmuş Azərbaycan dövlətində hərbi-siyasi-iqtisadi, sosial vəziyyət çox ağır idi. Ermənistanla müharibə ilə yanaşı ölkə daxilində vətəndaş qarşıdurması yaşanırdı. O illərdə yeni formalaşmaqda olan Azərbaycanın Milli Ordusu xalqımızın yeganə ümid közərtisi sayıla bilərdi. Hamıya bəlidir ki, ordu quruculuğu sahəsində qəbul olunan bəzi normativ-hüquqi aktların icra vəziyyəti acınacaqlı idi.

1993-cü ilin iyun ayında böyük siyasətçi və dövlət xadimi Heydər Əliyev xalqın tələbi və təkidi ilə hakimiyyətə qayıtdıqdan sonra respublikanın digər strateji sahələrində olduğu kimi ordu quruculuğunda da vəziyyət sürətlə dəyişməyə başladı. İdarəetmədə, siyasətdə, milli maraqların müdafiəsində zəngin səriştəsi olan Ümummilli lider ilk növbədə ordunun bütün döyüş hazırlığının yüksəldilməsi işini ciddi nəzarəti altına aldı, yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən birləşmələri ləğv edərək, vahid komandanlığa tabe olan nizami ordu yaratdı.

1993-cü il noyabrın 23-də Parlement "Müdafiə haqqında" Qanun qəbul etdi. Bu qanunda ordu quruculuğunda məsul vəzifələri, şəxs və orqanların fəaliyyətini sistemləşdirilir. Prezident şəxsən cəbhə bölgələrində ordunun, əsgərlərin vəziyyəti ilə tanış olur, bir sıra konkret vəzifələr müəyyənləşdirir, vəziyyətə uyğun çevik qərarlar qəbul edir. Ulu öndər Heydər Əliyevin döyüşçülərimizlə səngərdə görüşməsi və onları döyüşə ruhlandırması müsbət nəticə verir. 1994-cü ilin sonunda Milli Ordunun sıralarında 54 min əsgər və zabit vətənə xidmət edirdi. Silahlı Qüvvələrin maddi-texniki bazası durmadan möhkəmləndirilirdi. Bütün bunların nəticəsi olaraq Azərbaycan ordusu erməni silahlı birləşmələrinin respublikanın içərilərinə doğru hücumunu dayandıraraq, hətta əks-hücuma keçdi, 1994-cü il yanvarın 5-də uğurlu əməliyyatlar nəticəsində Horadiz qəsəbəsini, 22 kəndi işğaldan azad etdi. 1994-cü il mayın 12-də sərhədlərdə atəşkəsə nail olunur, Azərbaycanda nizami, müasir səviyyəli ordunun qurulması prosesinə böyük inamla start verilir. Ümummilli lider Heydər Əliyev Azərbaycanda ordu quruculuğunun gücləndirilməsi və hərbi gücün artırılması üçün yeni texnikalar və yeni silahlar alaraq ölkənin hərbi qüdrətini durmadan artırır, müxtəlif ixtisaslı hərbi məktəblərin açılması üçün sərəncamlar imzalayır. Ölkə tarixində ilk dəfə olaraq Hərbi Hava Qüvvələrinin tərkibində Uçuş Hazırlığının Təlim Mərkəzi yaradılır. Bu mərkəz sonralar Prezidentin sərəncamına əsasən Azərbaycan Respublikası Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən və ali hərbi təhsil verən Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə çevrilmişdir.

Azərbaycan xalqının böyük oğlu, həmişə azərbaycanlı olması ilə fəxr etmiş dahi çoxsiyyət Heydər Əliyevin siyasətini bu gün uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev orduya, hərbi quruculuğa böyük önəm verərək, ölkəni regionun super güclərindən birinə çevirməyə nail olmuşdur. Prezidentimiz işğal altında olan torpaqlarımızın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, sülh yolu ilə azad edilməsi xəttini Azərbaycan xarici siyasətinin əsas prioritetlərindən biri hesab edir. Müdafiə xərclərinin artırılmasına, Silahlı Qüvvələrin modern texnika ilə təchiz edilməsinə xüsusi diqqət yetirir. Azərbaycanın yeni texnologiyalara əsaslanan hərbi texnika və döyüş vasitələri ilə təchiz edilmiş, NATO standartları əsasında təlim görmüş silahlı qüvvələri ilə Cənubi Qafqazda hərbi qüdrətinə görə lider ölkədir.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin təhsil sistemi müasir standartlara uyğun olaraq təkmilləşir. Orduya gələn gənclərin peşəkar hərbi qulluqçu kimi hazırlanmasına xüsusi önəm verilir. Onların hərbi vətənpərvərlik ruhu, döyüş əhvali-ruhiyyəsi yüksəkdir, Ali Baş Komandanın əmrinə hər an hazırdırlar. Gənclərimiz Polad Həşimov, Mübariz İbrahimov, Ramil Səfərov, Valeh Müslümov, İbad Hüseynov, Ramil Heydərov, Əliqismət Yaqubov, Pəncəli Teymurov kimi igidlərimizdən nümunə götürür, mətinləşir və qorxmaz olurlar.

Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyev demişdir: "Mən hərbi hissələrdə tez-tez oluram. Cəbhə xəttində tez-tez oluram. Döyüşçülərlə səngərlərdə görüşürəm, söhbət apanram. Görürəm ki, hoqiqətən Azərbaycan əsgərinin Vətənə çox böyük bağlılığı vardır. Vətən sevgisi, vətənpərvərlik ruhu bizdə çox yüksəkdir. Əminəm ki, dediyim bütün bu amillər - bizim siyasi gücümüz, iqtisadi inkişafımıza, Vətənə olan sevgimiz məsələnin həlinə gətirib çıxaracaq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, Azərbaycan bayrağı Şuşada, Xankəndi, Qarabağda dalğalanacaqdır".

Belə də oldu. Ali Baş Komandanın sərkərdə məharəti, qətiyyəti, ordumuzun, əsgər və zabit heyətinin qəhrəmanlığı, xalqımızın birliyi Vətən müharibəsində qələbəmizi təmin etdi. Qalib ordu və qalib xalq adını qazandıq.

Gültəkin Şıxəliyeva
Əməkdar müəllim

HEYDƏR ƏLİYEV UCALIĞI

Həyat və fəaliyyətinin bütün sahələrində öz doğma xalqına, doğma torpağına tam varlığı ilə bağlı olan Heydər Əliyevin hakimiyyətdə olduğu müddətdə heç kəs Azərbaycan torpaqlarının bir qarışını belə elə keçirə bilməmişdi. Tarix boyu Azərbaycana qarşı torpaq iddiasında olan erməni millətçiləri Heydər Əliyev zəkası qarşısında aciz idilər.

1988-1993-cü illərdə Heydər Əliyevsiz Azərbaycan daha dəhşətli itkilərə məruz qaldı. Düşmən üstümüzə gəldi, torpaqlarımız işğal edildi. İnsanlarımız didərgin düşdü, ən dəhşətlisi isə o oldu ki, ölkədə özbaşınalıq yarandı. Silahlı qruplaşmalar vətəndaş müharibəsi həddinə çıxardı. Özbaşınalıq və xaos Azərbaycanın müstəqilliyini təhlükə qarşısında qoydu. Tarixin mürəkkəb məqamında xalq yenidən öz xilaskarını axtarıb tapdı.

Xalq Heydər Əliyevi israrla hakimiyyətə gəlməyi tələb etdi. O, həmişə olduğu kimi xalqın çağırışına doğma münasibət bəslədi, Naxçıvandan Bakıya gəldi. Xalq öz sevimli rəhbərini, tarixin sınağından məğrur çıxmış xilaskarını böyük rəğbətlə qarşıladı, insanların gözlərindən axan sevinc yaşları tarixin yaddaş səhifələrinə hopdu. Heydər Əliyev ölkədə yaranmış gərgin, mürəkkəb durumu, vətəndaş müharibəsi alovunu söndürmək vəzifəsinin öhdəsindən gəlmək üçün gecə-gündüzlü məhsuldar fəaliyyətə başladı. Vətəndaş müharibəsinin dəhşətini dərindən duymaq üçün bir anlığa gözlərimiz qarşısında Əfqanıstan, Tacikistan kimi respublikalarda axıdılan qardaş qanına diqqət yetirmək kifayət edər. Zəngin dövlətçilik təcrübəsi ilə o, yaranmış mürəkkəb vəziyyəti müdrikliklə təhlil etdi. İncə siyasi gedişləri ilə Heydər Əliyev qısa müddətdə ölkədə baş qaldırmış dağıdıcı prosesləri öz nəzarətinə götürə bildi. Heydər Əliyevin böyüklüyü burada da özünü göstərdi. O, xalqın sağlam qüvvəsindən müdrikcəsinə istifadə edərək onu müstəqilliyin qorunması məqsədinə yönəltməyə çoşub-daşan gücünü dağıdıcı qüvvələrin qarşısını almağa istiqamətləndirdi. Ölkə sanki ağır yükün gərginlik dolanbacından çıxdı. Ölkənin müstəqillik yükü, xalqın sabaha inamı Heydər Əliyevin Vətən sevgisinin odu ilə döyünən böyük ürəyində, nəbzində narahatlıqla vurdu. Heydər Əliyevin doğru siyasəti nəticəsində Azərbaycan tarixində mühüm hadisə baş verdi, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı və Ermənistan-Azərbaycan müharibəsində atəşkəs əldə olundu. Elə bu vaxt Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş qüvvələr yenidən hücuma keçdilər. Xalq isə öz Prezidentini göz bəbəyi kimi qorudu. İki dəfə dövlət çevrilişinin qarşısı alındı, ölkənin mənəvi durumu düşmən meyilli qüvvələrdən xeyli təmizləndi. Müstəqil Azərbaycan öz xilaskarı ilə dövlət quruculuğuna inamla qədəm qoydu. 1995-ci ildə ilk dəfə olaraq müstəqil Azərbaycan özünün Konstitusiyasını qəbul etdi.

Bazar iqtisadiyyatına yaşıl işıq yandıran qanunlar qəbul edildi, ən başlıcası ise qüdrətli ordu quruculuğu prosesi formalaşdı. Azad mətbuatın demokratik prinsiplərlə inkişafına hüquqi zəmin yaradıldı. Senzura götürüldü. Şərqdə ilk dəfə olaraq ölüm cəzası ləğv olundu. Avropa Şurasına qəbul olmaq, NATO ilə əməkdaşlıq etmək, "İpək Yolu"nun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəməri və s. qlobal niyyətlər reallığa çevrildi. Zaman keçdikcə Heydər Əliyev siyasətinin çalarları pərdə-pərdə açıldı. Heydər Əliyev öz məğrur səsi ilə dünyanın bütün dövlətlərinin ali kürsülərindən cəsarət və mərdlikdə bəyan etdi: "Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir. Azərbaycan bundan sonra heç zaman heç bir dövlətin asılısı və müstəmləkəsi olmayacaqdır".

Bu möhtəşəm qayəni özünün şərəfli ömrünün mənası hesab edən Heydər Əliyev ucalığının əsasları məhz bunlardır. Vətən və torpaq sevgisi ilə mayalanan əqidə mübarizəsi ilə saflaşan Heydər Əliyev ucalığı əbədi ucalıqdır.

Xalqımız onun Azərbaycan naminə gördüyü möhtəşəm işləri heç vaxt unutmayacaqdır. Bir sözlə "Xalq - Heydər, Heydər - xalq" birliyi əbədi olaraq qalacaqdır.

MÜQƏDDƏS DƏNZİYEV,
Lənkəran Regional Mədəniyyət İdarəsinin Lerik rayonu üzrə nümayəndəsi.

QARTAL BAXIŞLI

Səxavət Əbi oğlu Hacıyev. Bu ad çoxlarına əziz və doğmadır. Ona görə doğmadır ki, Səxavət ana vətəni, yurdunu, elini-obasını hədsiz dərəcədə sevirdi. Elə vətən yolunda da gənclyini, şirin canını qurban verdi: şəhid oldu ki, vətəni yağıların tapdağına düşməsin, torpaq azad olsun, millətin başı ucalsın...

Səxavətin hünərinə, cəsarətliliyinə, vətənsevərliyinə çoxlu şeir, məqalə, oçerk, "Vətən sənə oğul dedi..." adlı publisistik xatirə kitabı yazılsa da o, yeni ömür kitablarına layiqdir. Müqəddəs Şəhidlər Xiyabanında torpağa tapşırılan Səxavət Hacıyevə şair Eldar İsgəndərzadə şeir həsr etmişdir. Qartal tək süzərək ruhu ulu torpağın səmasında ötən Səxavətə xitabən şair yazır:

Əssəlam, ey Şəhid!.. nidam yüksəlir,
Məzarın önündə başlar əyilir...
Hamı ölmək üçün vətənə gəlir,
Sənsə Vətən üçün ölməyə getdin...

Bəli, qartal baxışlı, polad kimi əyilməz, mərd və qorxmaz, Vətəni özü qədər sevən Səxavət Hacıyevin ömür yolu hamıya bir örnəkdir. O, 1966-cı ilin dekabr ayında dağlar diyarı Lerikin Rvarud kəndində dünyaya göz açıb. Atası Əbi kişidən, anası Rəviyyə xanımdan həyat dərslərini öyrənib. 1984-cü ildə orta məktəbi bitirir və Bakı Politexnik Texnikumuna daxil olur. Hərbi xidmətini uğurla başa vurur. Texnikumda təhsilini başa vurur. İxtisası üzrə işləyir, yaxşı bir mütəxəssis kimi tanınır.

Artıq Qarabağda vəziyyət kəskinləşmişdi. Hər gün cəbhədən acı xəbərlər gəlirdi. O döyüşən cəbhəyə getmək üçün müraciet edir. 20 Yanvar faciəsi zamanı qəddar rus ordu hissələrinin qarşısına çıxır, yaralılara kömək edir, şəhidlərin dəfn olunmasına kömək edir, vətəndaşlıq borcunu yerinə yetirir. Səxavət Naxçıvana gedərək Sədərək döyüşlərdə iştirak edir, fədakarlıq göstərir.

1992-ci ilin fevralında Səxavət Hacıyev Qarabağın ən qaynar döyüş nöqtəsinə gəlir. İlk döyüş yeri Şuşa şəhəri olur. Şuşanın xayanət nəticəsində işğal edilməsi ilə heç cür barışa bilmir. O, Ağdərə uğrunda gedən qanlı döyüşlərdə qəhrəmanlıq göstərir, apancı qüvvəyə çevrilir. Sırxavənd uğrunda vuruşmada Səxavətin cəsarətliliyi, qorxmazlığı, vətən yolunda fədakarlığı komandir heyəti tərəfindən nümunə göstərilir. Düşmənin zirehli maşınından atılan mərmilərdən biri Səxavət Hacıyevin döş qəfəsindən ağır yaralayır. Onu M.Nağıyev adına Respublika Kliniki Xəstəxanasına çatdırırlar, tibbi yardım göstərir, müalicə edirlər.

25 yanvar, 1993-cü il... saat 17:00 ... Səxavət Hacıyevin ürəyi döyünməkdən dayanır... 26 il 56 gün ömür sürdü Səxavət. Şərəfli bir ömür.

Səxavətin qardaşı Mübariz Qəhrəmanlı Qarabağ şəhid ailələrinin himayədarı, dayağıdır. O, şəhid adlarının əbədiləşdirilməsi üçün var gücünü əsirgəmir. Onun təşəbbüsü və yaxından köməyi ilə Rvarud kəndinin uca bir dağında "Zirvə" şəhidlər kompleksi tikilib. Kompleksdə Səxavət Hacıyevin büstü qoyulub.

Qəhrəman Səxavətə əşq olsun!

BALAMİRZƏ MİRHÜSEYNOV,
Şəhid atası.

XOCALI UNUDULMUR

Azərbaycanın müasir tarixinə ən qanlı faciələrdən biri kimi yazılan Xocalı faciəsinə hüquqi-siyasi qiymət ilk dəfə məhz Ümummilli lider Heydər Əliyev tərəfindən verilib. Ulu öndər Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi soyqırımı və terror siyasətinin mahiyyətini, habelə ərazilərimizin Ermənistan silahlı qüvvələri tərəfindən işğalından sonra Dağlıq Qarabağın terrorizm mənbəyinə çevrilməsi və digər faktların dünya ictimaiyyətinə çatdırılmasını xarici siyasətdə mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdi.

Xocalı soyqırımının dördüncü ildönümü ilə əlaqədar xalqa müraciet edən Heydər Əliyev dərin kədər hissi ilə deyirdi: "Xalqımıza qarşı yeridilmiş bu məqsədyönlü soyqırımı siyasəti insanlıq və bəşəriyyət tarixində ağır bir cinayət kimi qalacaqdır. Əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımı erməni qəsbkarlarının vəhşiliklərini bütün dünyaya bir daha nümayiş etdirdi. Xocalı faciəsi xalqımızı sarsıtsa da, onun dözümünü, iradəsini qıra bilmədi. Bu müsibət müqəddəs Vətənimizin müstəqilliyi, torpaqlarımızın bütövlüyü, sərhədlərimizin toxunulmazlığı uğrunda mübarizədə bizi daha da mətinləşdirdi və birləşdirdi".

Heydər Əliyev fevralın 24-də bir qrup Xocalı sakini ilə görüşdü. Xalqımızın çoxəsrlik tarixində bir çox qəhrəmanlıq nümunələri göstərdiyini, öz azadlığı uğrunda mübarizə apardığını diqqətə çatdıran Ulu öndər zaman-zaman ermənilər tərəfindən başımıza gətirilən oyunlardan, fəlakətlərdən danışdı, xocalılara bundan sonra daha çox qayğı göstərilməli olduğunu vurğulayaraq dedi: "Şübhəsiz ki, bütün qaçqınlara, bütün şəhid ailələrinə, müharibədə şikəst olmuş bütün adamlara, müharibə əlillərinə, hamıya qayğı göstərilməlidir. Ancaq xocalıların başına gələn bəla heç kəsin başına gəlməyib və bu da nəzərə alınmalıdır".

Soyqırımı cinayəti BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul olunmuş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada müəyyən edilmişdir. Xocalı soyqırımı zamanı baş vermiş cinayət əməllərinin qabaqcadan düşünülmüş qaydada, insanların kütləvi şəkildə məhv edilməsi niyyəti ilə törədilməsi onun genosid aktı olduğunu sübut edir. Azərbaycana qarşı təcavüz zamanı adıçəkilən Konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər tətbiq olunmuşdur. Çox təəssüf ki, Azərbaycanda dinc əhaliyə qarşı belə dəhşətli soyqırımı aktları həyata keçirilməsinə baxmayaraq, bu faktlar, o cümlədən Xocalı soyqırımı beynəlxalq aləmdə hələ də öz hüquqi-siyasi qiymətini almamış, bu hadiseni planlaşdıranlar, təşkil edənlər və törədənlər beynəlxalq normalar çərçivəsində məsuliyyətə cəlb edilməmiş, layiqli cəzalarını almamışlar.

Ulu öndər Heydər Əliyev Xocalı soyqırımının əsl mahiyyətini açıqlamış, hələ 1994-cü ilin fevralında Azərbaycan Respublikası Milli Məclisi Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsinə nail olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər zaman bu münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasının, zəbt edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin çıxarılmasının zəruriliyini qətiyyətlə vurğulamış, soyqırımı cinayətini törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasının vacibliyini bəyan etmişdir.

ELÇİN İSGƏNDƏROV,
"Əsrin ziyalısı" media mükafatı laureatı

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜDRİK KƏLAMLARI

Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.

***

Vəzifədən ötrü yaşayan adamlar badbəxt adamlardır.

***

Öz ana dilini bilməyən adamlar şikəst adamlardır!

***

İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

***

Heç bir ölkəni özünə düşmən hesab etməməlisən.

***

Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır.

***

Yol - iqtisadiyyat, mədəniyyət, bir sözlə həyat deməkdir.

***

Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir.

***

Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.

***

Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır.

***

Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir.

ELİN NURUNA BƏLƏNMİŞ HƏKİM

Onun simasından nur yağırdı. Ürəyindəkiləri üz-gözündən oxunurdu. Kin-küdurətdən uzaq idi. Sanki o, insanlara yaxşılıq etmək üçün dünyaya gəlmişdi. Mənə elə gəlirdi ki, Elnur elin nurunu, sevgisini daşıyırdı. O, arzusuna, istəyinə çatmaq üçün enişli-yoxuşlu yolar keçmişdi.

Ziyalı ailəsindən pərvazlanmış Uzman həkim Elnur Babaxan oğlu Rufulayev insanların həyatını xilas etmək, onlara həyat bəxş etmək üçün yaşayırdı. Türkiyədə çalışdığı xəstəxananın qarşısda təsadüfü bir avtomobil qəzası nəticəsində həyatını erkən itirdi, lakin onun ruhu doğma el-obasına doğru uçdu...

Allahın Rəsulunun (Ə) hədislərindən birində deyilir: "Əgər bir şəxs elm ardınca getdiyi məkanda dünyasını dəyişərsə, o, Allahın dərgahında şəhidlik məqamına çatmış sayılır. Bu deyilənləri əsas götürərsək onda Elnur elm uğrunda şəhid sayılır...

Doğrudan da Elnur Babaxan oğlu Ruhullayev elm fədaisi, həmişə həkimlik sənətində ixtisası üzrə yeniliklərə öyrənən, elmi axtarışlar aparan gənc bir həkim, yaşatmaq eşqilə ürəyi döyünən humanist insan, yurdun təəssübünü çəkən alovlu vətənpərvər idi. O, elmi kitablarla, praktiki məşğələlərlə kifayətlənmirdi, uzun illərdən bəri həkim işləyənlərin təcrübələrindən faydalanırdı. Bilmədiklərini öyrənməyi özünə borc bilirdi. Hər bir azərbaycanlı tələbənin, həkimin uğuruna sevinirdi. "Lerik" qəzetinin redaksiyasına gəlmiş məqalələri çap olunmuşdur. Onun 2013-cü ildə, 2021-ci ildə qəzetimizdə çap olunmuş məqalələrini unutmamışam. O, fəxrlə bildirirdi ki, ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqillik illərində xaricdə təhsil gənclərə xüsusi diqqət göstərirdi. Bu siyasət hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etməkdədir.

Elnur arzusunun ardınca gedərək 2007-2015-ci illərdə "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na uyğun olaraq 2012-ci ildə İstanbul Universitetinin tibb fakültəsinə İnfeksion xəstəliklər və kliniki mikrobiologiya ixtisasına yiyələnmiş, oranı uğurla bitirmiş, "Doktor Uzman" ali tibbi dərəcəsini almışdır. Çalışdığı kafedra rəhbərliyinin tövsiyəsi ilə Ankara və Almaniyada elmi simpoziumlarda iştirak etmişdir. O, İstanbul "Güngören", "Başarı", "Memorial" xəstəxanasında müsabiqə yolu ilə işə qəbul olunmuşdur. Elnur dünyada məşhur "Memorial" xəstəxanasında çalışdığı zaman billikli, bacarıqlı və nəta-

T.C.
SAĞLIK BAKANLIĞI
UZMANLIK BELGESİ

Azərbaycan Tıp Üniversitesi Tıp Fakültesinden 21/06/2008 tarihinde 008899 seyrli diploma ile mezun olan Azərbaycan-1985 doğumlu

Elnur Rufullayev

1219 sayılı Tababet ve Şevkat Sanatlarının Tarzı İcrasına Dair Kanun ve ilgili uzmanlık eğitimi mevzuatı hükümlerine göre,

İstanbul Üniversitesi İstanbul Tıp Fakültesinde

uzmanlık eğitimini tamamlayarak 30/04/2018 tarihinde

Enfeksiyon Hastalıkları ve Klinik Mikrobiyoloji

alanında uzman unvanını kazanmıştır.

vor həkim kimi tanınmış, burada Azərbaycanı layiqincə təmsil etmişdir. Türkiyənin iki televiziya kanalına geniş müsahibə vermiş, həmin söhbətlər İnternet şəbəkəsi vasitəsilə yayımlanmışdır.

Elnur Rufullayev koronavirus pandemiyasının yayıldığı illərdə daha fəal olmuş, vaksinasiya olmağın elmi əhəmiyyətini təbliğ etmiş, taclı virusun qarşısının alınması üçün təkliflər vermişdir. İnfeksion xəstəlikləri ilə təsirli mübarizə aparmış, bu sahədə elmi axtarışlar aparmışdır.

Qarşımda iki sənəd var. Onlardan birini Türkiyə Cümhuriyyətinin Səhiyyə naziri Fahrettin Koca imzalayıb. Bu məktubda nazir Elnur Rufullayevi 14 Mart Tibb Bayramı münasibətilə təbrik etmiş, ona nəcib və şərəfli fəaliyyətində uğurlar arzulamışdır.

İkinci sənəddə isə İstanbul Universitetinin məzunu Elnur Ruhullayeva "Uzman-Doktor" diplomunun verilməsi göstərilib. O, buna dəfələrlə layiq idi.

Elnur Ruhullayev sözün həqiqi mənasında işıqlı insan idi, nurlu yolla gedirdi, tibb alimi olmaq istəyirdi. Heyf ki, yarımçıq qaldı. Onun arzularını iki oğlu - Muradla Aslan tamamlayacaq, ataya layiq övlad olacaqlar. İllər keçsə də Elnur unudulmayacaq, işıqlı xatirəsi həmişə yad ediləcək.

Xalıq Əbutalıboğlu

VƏTƏNİN NƏĞMƏSİNƏ ÜRƏYİNİN DÖYÜNTÜSÜ İLƏ SƏS VERƏNLƏR

Ulu öndərimiz Heydər Əliyevin nümunəvi həyat yolu, özü bir vətənpərvərlik, həyata baxışı və həyat eşqi Azərbaycan boyda bir əbədiyyət təcəssümüdür.

Yazıya Ulu öndərimiz, Azərbaycan xalqının bugünkü və gələcək xoşbəxtliyinin müjdəçisi olan Heydər Əliyevin Vətənimiz haqqında ifadələri ilə başlamaq istəyirəm: "Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Bəli, bu gün gənc nəslin vətənpərvərlik ruhu ən yüksək səviyyədədir. Azərbaycan məktəbi gənc nəslin vətənpərvərlik yolunun istiqamətini müəyyənləşdirməkdə böyük gücə malikdir. Yüz illər boyu Azərbaycançılıq məfkurəsini ürək yanğısına çevrilmiş əcdadlarımız, baba və nənələrimiz bu yolda saysız-hesabsız qurbanlar vermişlər, illərlə oyanan milli şüurlarını dövlətçilik şüuruna çevirməyə çalışmışdır.

Bu gün Azərbaycan gəncləri Heydər Əliyevin, Şah İsmayıl Xətainin, Babək Xürrəminin, Cəmşid Naxçıvanskinin, Əlağa Şıxlinskinin, Tomrisin, Tutibikənin, Pənahəli xan kimi tarixi şəxsiyyətlərimizin parlaq irsini dayanmadan öyrənməlidir. Azərbaycanın yetişməkdə olan gəncləri özünü xalqımızın gələcəyinə fəda edən insanları unutmamalıdır. Müstəqil Azərbaycan dövlətinin ilk yolçularının tarixi öyrənilməlidir. Şəki, Gəncə, Lənkəran, Qarabağ, İrəvan, Naxçıvan xanlıqlarının, bəylərbəyliklərimizin, tarixi Əsgəran, Bayat, Şahbulaq, Şuşa (Pənahabad) kimi qalalarımızın, hər bir obamızın, kəndimizin, şəhərimizin, hər qarış torpağımızın tarixi dərindən öyrənilməlidir. Amansız tarixin Araz çayı yarası, Xudafərin körpüsünün ürəklərdə sızıldayan yanğısı, Ağbaba, Dərəçiçək, Göyçə, Gərnibasar, Zəngəzur, Qırxbulaq, Vedibasar, Dərələyəz və onlarla bizsiz qalmış yurd yerlərimizin həsrətinin bizə verdiyi dərslərdən nəticə çıxarmalıyıq.

Azərbaycan xalqının milli sərvətlərinə göz dikənlər, yurdumuzun tarixi torpaqlarını işğal etmək istəyənlər, çaylarımıza, göllərimiza, körpülərimiza sahib olmaq istəyənlər birdəfəlik anlamalıdır ki, bu gün Azərbaycan sözünü deyir və gələcəkdə də deyəcək. Nəcə ki, İkinci Qarabağ savaşında 44 gün ərzində cənab Prezident, Ali Baş Komandan İlham Əliyev rəhbərliyi ilə sözümüzü dedik və bu son sözümüz deyil, gənc yenə nəyə qadir olduğumuzu göstərəcəyik.

Azərbaycanın bütün təhsil sahələrində şagirdlərimizə, tələbələrimizə hər bir təhsil alana milli dəyərlərimizi, Azərbaycan dilini, milli-etnik gerçəkliyimizi, etnografiyamızı, toponimlərimizi, vətəndaşlarımızın ibadət etdiyi dinləri, arxeologiyamızı, milləti-mizin dəyərlərimizin, mədəniyyətimizin sahiblənməsi, maarifləndirilməsi yolu ilə öyrədilməlidir. Övladlarımıza sahibn olduqları müstəqil dövlətçilik ənənələrimizin, milli mənsubiyyətimizin, milli sərvətlərimizin, vətən təəssübkeşliyinin necə qavranılması barəsində bir də düşünməliyik. Tarixin Türkmançay, Gülüstan kimi tükürpərdici amansızlıqlarını unutmamalıyıq.

Hər bir Azərbaycan gənci dövlətçiliyimizin quruculuğunda öz fəaliyyətini bəlli etməlidir.

Böyük Azərbaycan mütəfəkkiri Nəsirəddin Tusi yazır: "İnsanlıq bu gün mövcudluğuna görə aldığı tərbiyəyə borcludur".

Qeydlərimizin Ulu Öndər Heydər Əliyevin müdrik kəlamları ilə yekunlaşdırmağı özümə borc bilirəm: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası -Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılıq - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Camal ZÜLFİYEV,

Lerik şəhər V.İbrahimov adına inteqrasiya təlimli internat tipli gimnaziyanın tərbiyə işləri üzrə direktor müavini

KİNOMUZUN HƏZİ ASLANOVU...

Kino yeganə sənət növüdür ki, özündə mədəniyyətin bir neçə sahəsini birləşdirir. Kinonun bir üstünlüyü də oyanıliyindədir, inandırma gücünə və təsirə malik olmasındadır. Luis Bunuel qeyd edib:"Kino hissləri, arzuları və şüuraltını izah etmək üçün ən yaxşı vasitədir."Ədəbiyyat insanın təfəkkürünü formalaşdıran fərdi sənət növüdür. Əgər kinonu başqa sənət növü ilə müqayisə edirsinizsə, birinci növbədə onu nəzərə almaq lazımdır ki, kino fərdi yox, kollektiv sənətdir.Baxmayaraq ki,kino və bədii ədəbiyyat incəsənətin növləridir,amma kino ədəbiyyatdan da çətin bir sahədir! Ədəbiyyatda qələm və yaxud da kompüter yazıçının istifadə etdiyi vasitələrdir! Amma kinoda əlli nəfər insan, böyük və mürəkkəb texnika rejissorun vəsitəsi hesab olunur. Bütün bunlara maliyyə vəsaitini də əlavə etsək, rejissor bunların hamısı ilə təkbaşına, fərdi olaraq bacara bilməz. Filmin çəkilişində iştirak edən hər bir canlı vəsilənən, yəni insanın öz fikri, zövqü, peşəkarlıq səviyyəsi, kompleksləri, psixoloji xüsusiyyətləri var. Bütün bunlar çox adam dərindən dərk etmir. Bir əsərin yazılmasında isə bir müəllif ola bilər. Bu mübahisə olunmayacaq bir faktdır.Kinomuzda və teatrımızda şedevr rollarla yadda qalan teatr



zaralatla "yekə kişisən, Berlinə kimi gedib çıxmısan, özün də kommunistsən, camaat gedib raykomda işləyir, sən dülgərsən" deyardı. Atası da özünü sindırmaz və İsa peyğəmbərin(ə) də dülgər olduğunu bildirərdi. Qovvam kişi dindar olsa da, oğluna heç cür dini öyrədə bilmir.

Evdar qadın olan anasının təbii zəkası sayəsində həmişə ətrafdakı hadisələrə öz baxışı olurdu. Səməd Vurğunu çox sevir, hətta şairin şəklini gördə belə gözləri dolurdu. 1974-cü ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə daxil

və kino aktyoru ,Azərbaycan Respublikasının Xalq artisti,Prezident təqaüdçüsü, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aparıcı səhnə ustası Ramiz Novruz idi.Ramiz Qovvam oğlu Novruzov 25 may 1955-ci ildə Biləsuvar rayonunun Səmədabad qəsəbəsində dünyaya gəlib.Əsli Lerikdən-Hoveri kəndindən olan Ramiz Novruz 25 may 1955-ci ildə Biləsuvar rayonunun Səmədabad qəsəbəsində dülgər ailəsində dünyaya gəlib.Həmişə R.Novruz atası Qovvam kişiyə olub. Rejissor A.İsgəndərovun rəhbərlik etdiyi kursda təhsil alaraq oranı 1978-ci ildə bitirib. Təyinatla H. Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına göndərilib. Burada Knyaz Zvezdiç ("Maskarad", M. Lermontov), Mesxeraçi ("Muradın kələkləri", T. Kazımov), General Şixlinski ("Bütün Şərq bilsin", N.Həsənzadə) rollarını ifa edib.

O, 1981-ci ildə Azərbaycan Akademik Milli Dram Teatrının truppasına daxil olub. Elə ilk günlərdən kollektivdə hazırlanan tamaşalarda ona inhəcimli və mürəkkəb xarakterli rollar tapşırılıb. O, Akademik Milli Dram Teatrında 25-ə qədər rolda oynayıb. Ramiz Novruz həm də bir neçə pyes yazmış və bunlardan ikisi tamaşaya qoyulmuşdur. İlk pyesi olan "At ilinin birinci ayı" adlı 20 Yanvar hadisələrindən bəhs edən pyes 1992-ci ildə Gəncə teatrında B. Osmanovun rejissorluğu ilə tamaşaya qoyulmuşdur. 1992-ci ilin sonunda həmin pyes AzTV-də rejissor B. Osmanovun quruluşunda çəkilmişdir. R. Novruz öz pyesində Murad rolunda oynamışdır.1996-cı ildə yazdığı "Hələ sevməmişdilər" pyesi B. Osmanovun rejissorluğu ilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında 2002-ci ildə tamaşaya qoyulmuşdur. Bundan əlavə E.Filippinin "Silindr" əsərini rus dilindən Azərbaycan dilinə tərcümə etmiş və rejissor kimi tamaşaya qoymuş, həmçinin bu əsərdə Attillio rolunu ifa etmişdir.Beynəlxalq Teatr festivallarının mükafatçısıdır.

Teatr sənətindəki xidmətlərinə görə Ramiz Novruz 1993-cü ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 1998-ci ildə Azərbaycan Respublikasının Xalq artisti fəxri adlarına layiq görülüb. 9 may 2012-ci ildə, 30 aprel 2014-cü ildə,6 may 2015-ci ildə, 6 may 2016-cı ildə və 1 may 2017-ci ildə Prezident Mükafatına layiq görülmüşdür. 9 may 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür."Sizi dünyalar qədər sevirdim " filmi Ramiz Fətəliyev ssenari əsasında rejissor Rasim İsmayılov tərəfindən 1985-ci ildə

müsahibə alan və "Bolluq uğrunda" qəzetində onu dərc edən Əməkdar jurnalist, gözəl ziyalı İdris Şükürlünün qeyd etdiyinə görə Lerikdən-Hoveri kəndindən Biləsuvara köçən Ramiz Novruzun ailəsi nümunəvi, yaradıcı insanlardır! Belə ki, Ramiz Novruzun təşəbbüsü ilə dayısı Azərbaycan ədəbiyyatının görkəmli ədəbiyyatşünas alimlərindən olan professor Xeyrulla Məmmədov haqqında onu tanıyan qələm əhlinin xatirələrini bir memuar kimi ayrıca bir kitab şəklində çap etmişdir!Oğlu Cavidan Novruz aktyor və müğənnidir. Qızı Şəfəq Novruz stilistdir. Ramiz Novruz uzun müddət mədə xərçəngi xəstəliyindən əziyyət çəkirdi və 20 fevral 2023-cü il tarixində vəfat etmişdir. "Qurd qapısı" qəbirstanlığında dəfn edilib.Allah rəhmət eləsin! Ruhu şad və xatirəsi əziz olsun!

QƏDİR KƏRİMOV
tədqiqatçı-filoloq, AJB-nin üzvü və "Qızıl qələm" laureatı

AZƏRBAYCAN ORDUSUNUN BÖLMƏLƏRİ MİNAATANLARDAN ATƏŞƏ TUTULUB

Martın 5-i saat 15:00-dan martın 6-sı saat 03:10-dək Azərbaycan Ordusunun mövqeləri 19 dəfə atəşə tutulub.

Musavat.com xəbər verir ki, bu barədə MN məlumat yayıb.

Məlumata görə, Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Güneşli, Aşağı Şorca, Əzizli, Zərkənd, Yuxarı Zağalı yaşayış məntəqələri və Çəmbərək rayonu istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Daşkəsən rayonunun Astaf, Kelbəcər rayonunun Yellicə, Mollabayramlı, Yuxarı Ayrım və Gədəbəy rayonunun Göyəli yaşayış məntəqələrində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan və minaatanlardan fasilələrlə atəşə tutub.

Bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Şuşa şəhəri istiqamətində yerləşən mövqeləri də atəşə tutulub.

Ordumuzun bölmələri tərəfindən cavab tədbirləri görülüb.

ŞUŞA, RUHUMUN AZDIĞI ŞƏHƏR...

Əlim qələm tutmadı,
Yazıma gileylandım.
Bəxtimin baharında,
Azım da gilelendi...

Şəhidliyin acı bal,
Qübardı, Əliqismət.
Əliəsgərlə Məhəmməd,
(İki, qoşa gülcamal),
Nübardı, Əliqismət!

Sənə canımı verdim,
Vətənə qurban verdim.
İndi cansız qalmışam,
Sənliyimə can verdin.

Dilində "can" kəlməsi,
Hamıya sipər idin.
Qəlbində Quran səsi,
Düşmənə çəpər idin.

Bitməcəkmi bu həsrət!..
Ruhum axtardı Səni.
Şuşada, Əliqismət,..
Ruhlar azdırdı məni.

Suşa, Şəhid ruhları
Çəmləşən gözəl şəhər!
Səni qoruyanları,
Yaşadacaq bu Zəfər!

Qəhrəman ruhlar gəzir,
Bu şəhərdə, ay ellər!
Hamısı da bir candır,
Ayırmayın, küsərlər!..

Mükafat Əliqismət Yaqub
04 dekabr, 2022-ci il,

ƏBƏDİYYƏT YOLÇULARI - ƏLİ QİSMƏT

Xüsusi Təyinatlı Qüvvələrin zabiti, Kimya Xidmət rəisi, Vətən müharibəsində Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Vətən müharibəsində "Azərbaycan Bayrağı" ordeni və altı medalla təltif olunmuş Əliqismət Yaqublunun əziz xatirəsinə.

Oldu bu şəhadət sənə qismət, Əliqismət!
Tanrı özü vermiş sənə qiymət, Əliqismət!
Eşqin Vətən uğrunda uca dağda gül açdı
Duyduqda şəhid kəlməsi yarpaq da gül açdı.
Bəxtin elə ki, güllələnib bağda gül açdı,
Yazdı adını qəlbinə millət, Əliqismət!
Oldu bu şəhadət sənə qismət, Əliqismət!

Ruhun ən uca zirvəyə yüksəldi, ucaldı.
Torpaq dedi, qeyrət də cuşa gəldi, ucaldı.
Arzun ölümün gözlərinə güldü, ucaldı,
Tanrı özü vermiş sənə qiymət, Əliqismət!
Oldu bu şəhadət sənə qismət, Əliqismət!

Baş tacıdı hər bir şəhid, hər canları yurdun,
Yox haqqı unutsun sizi insanları yurdun.
Vardır nə qədər sən təki oğlanları yurdun,
Əyməz, əyə bilməz bizi zillət, Əliqismət!
Oldu bu şəhadət sənə qismət, Əliqismət!

Sancdın Şuşada bayrağı, al rəngə boyandı,
Odlar diyarı məmləkətim cəngə boyandı.
Dağlar-dərələr açdı dil, ahəngə boyandı,
Bundan sonra çəkməz Vətən illət, Əliqismət!
Oldu bu şəhadət sənə qismət, Əliqismət!

Cənnətdə - deyirlər, - Şəhidin ətri gözəldir,
Allah qapısında üzü ağ, xətri gözəldir.
Xalid sana yazdı bu neçə sətri, gözəldir.
Xoş halına, qismət sənə cənnət, Əliqismət!
Oldu bu şəhadət sənə qismət, Əliqismət!

XALİD MAHMUD.
4 noyabr 2022-ci il.

SOSİAL ŞƏBƏKƏ ƏYLƏNCƏ DEYİL

Sosial şəbəkəyə indi hamı baxır. Cavan da ona reaksiya bildirməyə, əylənce üçün baxır. bəzi adamlar elə şeylərə maraq göstəriri lər ki, heç məmali deyil.

Kimsə sovet dövrünün əsgərlik şəklini, kimisi də işinin fotosunu, kimi də özünə aid olan əkslərini, daha nəbilim nələri sosial şəbəkəyə nümayiş etdirir. Bəziləri də Facebook-u zəbt ediblər, oradan çıxmaq da istəmirlər. elə bilirlər ki, izləyici onların lüzumsuz şəkillərinə baxmalıdır.

Soruşmaq lazımdır: Siz iş-sənətiniz yoxdur, belə mənasız işlə, yaxud özünü reklamla məşğul olursunuz?

Düzdür, sosial şəbəkənin operativ informasiya verməkd təyi yoxdur. Day belə yox da! Hər əsqırana, şıllağ atana baxmalıyıq?

Heç olmasa Facebbokda ağzınıza, əğlınıza gələni danışmayın, bədəb söyüşlər söymməyin.

Unutmayın ki, kişi dilinin dibində gizlənir. Məscidin ağzı açıqdırsa, buna Facebook neyləsin!

ŞƏHİDLİK HƏR KƏSİN DEYİL QİSMƏTİ

Qəhrəman kimi şəhid olmuş Amil Əliyevin əziz xatirəsinə

Bu şeiri Azərbaycanı bəxtiyar görmək arzusu tükənməz, əməli, istəyi sərhədlər bilməz, həmyaşıdlarına örnək, əməli, əməli hamıya görk olan Bəxtiyar Hidayət oğlu Bəşirova ünvanlanıb.

Qəh-qəh çəkib gülürdü xəyalında arzular,
Aynagözlü bulaqda necə axır saf sular.
Amilin üreyində Vətən adı, el səsi,
Onun çalışqanlığı valeh etdi hər kəsi.

Dünyaya göz açmışdı Sors kəndində,
O böyük arzuları daşıyırdı qəlbində.
Hələ kiçik yaşında vurğun idi elinə,
Amil diqqət edirdi həmişə təhsilinə.

Doğma yurdumuzda izin var sənin,
Hər yanan ocaqda közün var sənin.
Kim deyir ki, yoxsan bu gün həyatda,
Adın yaşadır neçə kitabda.

Nəsildən-nəsilə sən bir örnəksən,
Hünərdə, qeyrətdə şəhidim təksən.
Sənin şəhid ömrün yanan gur çıraq,
Sənə qucaq açdı sevdiyin torpaq.

O şəhid oğulun ruhuna dəymə,
Qaldır öz başını, qəddini əymə.
Demə ki, oğlumun talanıb ömrü,
Alışan ocaq tək qalanıb ömrü.

Vətən sevgisi var onun ruhunda,
Amil bu sevgiyə cavab tapdı Quranda.
Döyüşdə fəth etdi uca zirvəni,
Cəsurdu, məğrurdu, əzdi düşməni.

Amili heç unutmur ağbirçək Telnaz nənə,
Hər gün lənət oxuyur yağı düşmənə.
Oğlu Yusifdir qalıb Amilin yadigarı,
Heyf ki, var onun da qəmi, qübarı.

Amil qalxdı yurdun haqq savaşına,
O köçdü əbədi el yaddaşına.
Şəhidlik hər kimin deyil qisməti,
Tanrı dərgahında qazanıbdı hörməti.

Düşmənin başında ocaq qaladı,
Vətənin ömrünə ömür caladı.
Ən uca zirvədə o tutdu qərar,
Sevin Azərbaycan, qələbəmiz var.

İzini qoruyur hər dərə, hər dağ,
Şuşada ucalır sevdiyi bayraq.
Qisasını alıb şanlı Ordumuz,
Amillə fəxr edir Odlar yurdumuz.

Dəyəri, qisməti olur hər anın,
Qübarı böyükdür Günel ananın.
Bilirəm, qəlbində ümman çağlayır,
Halına acıyıb göylər ağlayır.

Amilin hünərindən həmişə qürur duyur,
Böyük Qələbəyə sevinir Novruz ata.
Deyir elə gələn kədər bayramdı,
Şəhidlər Amil tək mənim balamdı!

TÜKƏNMƏZDİR ARZUSU BƏXTİYARIN

Bu şeiri Azərbaycanı bəxtiyar görmək arzusu tükənməz, əməli, istəyi sərhədlər bilməz, həmyaşıdlarına örnək, əməli, əməli hamıya görk olan Bəxtiyar Hidayət oğlu Bəşirova ünvanlanıb.

Gəlişilə işıq saçdı dünyaya,
Sevinc bəxş elədi ata-anaya.
Onu dəstəklədi bu yurd, bu oba,
Yaradan həmişə oldu ona yar,
Ağılla, kamalla yaşa, Bəxtiyar.

Bəxtiyar örnəkdi hər bir insana,
Sidq ilə baş əydi o, Yaradana,
Dikildi heyrətlə baxışlar ona,
Qəlbində Vətənə sonsuz sevgi var,
Tanrı əmanət oldu Bəxtiyar.

Üz-gözündən yağır Allahın nuru,
Dağlardan ucadır onun qüruru,
Haqdan pay aldı hər bir uğuru,
Xeyirxah əməli gülü bir bahar,
Hər tərəf gül açdı, güldü Bəxtiyar.

Vətən qarşısında o üzüağdır,
Qardaşı Elxana arxa-dayaqdır.
Arzusu tükənməz, qucaq-qucaqdır,
Onunla öyünür bu yurd, bu diyar,
Zirvədən-zirvəyə ucal, Bəxtiyar.

Sənin incə qəlbin şüşədən təmiz,
Çırpınan ürəyin dalğalı dəniz.
Haqqa-ədalətə çatır səsiniz,
Çörəyi dostlarla bölən Bəxtiyar,
Lerikin qədrini bilən Bəxtiyar.

İdris qələm aldı şeir yazmağa,
Dürlü-dürlü sözü açıb yozmağa,
Dedi: kim bağlansa doğma ocağa,
Onunla öyünər, duyar iftixar,
Xalqın övladısan, yaşa, Bəxtiyar!

İdris Şükürlü

LERİKİN YOL PROBLEMİ

"Lerik" qəzetində Lerik rayonunun yollarından çox yazmışıq. Xüsusilə də, Lerik-Lənkəran yolunda təmir gedəndə, 4 ərəziyə asfalt yol çəkiləndə yol ustalarının gərgin əməyi qəzetin diqqət mərkəsində olub. Danılmaz faktdır ki, əvvəlkinə nisbətən yol infrastrukturunun yenilənməsində irəliləyiş var.

Təəssüf ki, 50-ci kilometr - Şəngədulan- Xanagah yolundakı dağıntıları hamı görsə də məhəl qoyan yoxdur. Görəsən bu yolu çəkənlər problemin həlli barədə düşünürmü? Belə getsə yol sıradan çıxacaq. Bu onların öz günahıdır.

Lerik-Lənkəran yolu insafən diqqət mərkəzindədir. Bir ildən çoxdur ki, yolun Günəşli kəndinin ərazisindən keçən hissəsində asfalt yolun çaya tərəf olan hissəsində torpaq sürüşüb. Əgər ağaclar olmasaydı yol çoxdan sürüşmüşdü. Bu isə yolun bağlanması olardı.

Yolun sürüşən hissəsi təcili olaraq nəzarətə götürülməlidir. Axı, həmin yolu düzəltmək elə də çətin iş deyil. Sadəcə ürək yanmalıdır.

Görəsən sürüşən yol nə vaxt qaydaya salınacaq?!

"Lerik"

YAZILAN, POZULMAZ

Səhər tezdən gəldi bizə bəd xəbər,
Eldəniz qəzaya düşüb dedilər.
Yoldaşı, uşaqlar şoka düşdülər,
Ora gedib çatmağa tələsdilər.

Gördülər artıq o keçinibdir,
Sanki, ədəbi yuxuya gedibdir.

Yoldaşı yoldu saçını, ağladı,
Başına bir qara yaylıq bağladı.
Şivən qoparıb, onu qucaqladı.
Qardaşı onu bir təhər saxladı.

Əzizləri gözü yaşlı qaldılar.
Tabutunu kəndə yola saldılar.

Cavan getdin, beləcə kürəkənim,
Çox hörmətin vardı yanımda mənim.
Atan da qəzadan getdi əzizim,
Sən qovuşdun atana Eldənizim.

Tammam olmadı heç qırx yaşın sənin.
Ancaq bu gün tamamdır qırxın sənin.

Qaldı ürəyində çox arzuların,
Sensiz ağlar yoldaşın, uşaqların.
Heç vaxt çıxmazsan yadından onların,
Bir oğlun, bir qızın var yadigarın.

Onlar sənin ruhunu şad edərlər.
Qəbrin üstə tez-tez gəlib gedərlər.

Qismətimiz yazılıbdır əzəldən,
Qaçmaq olmaz bizə gələn əcəldən.
Əcəl gəlir bizdən, ölüm qəfildən,
Məzardır son mənzilimiz əzəldən,

Nə yazılıb alnımıza olacaq,
O yazılan son nəsəfə qalacaq.

Allah sənə min bir zəhmət eyləsin,
Hörmətini saxlayırdın hər kəsin.
Qalmış telefonda şəkilin, səsin,
Bəs Bəlali ağlamasın, neyləsin?

Bir gün gələr o da köçər dünyadan,
Dünyada qalacaq bircə Yaradan.

Bu son qəmin olsun, qızım, Xəyalə,
Səbrli ol, tez-tez dalma xəyala,
Belə yazı yazmış Allahu-təala,
Həyat davam edir, sönməyib hələ.

Şükür ki, nəslinin davamçısı var.
İnan hər şey inşallah, yaxşı olar.

Babaəli Sakit

ƏHALİNİN NƏZƏRİNƏ

Lerik Rayon Mərkəzi Xəstəxanasının Publik hüquqi şəxsin USM KABİNETİ

Sizin xidmətinizdədir

Müasir tipli USM aparatı ilə təcrübəli həkim Aqşin Hüseynov sizə aşağıda göstərilən tibbi müayinələri dəqiqliklə həyata keçirir:

Qaraciyər, öd kisəsi
Mədəaltı vəzi
Dalaq
Böyrəklər
Sidik kisəsi
Prostat vəzi
Uşaqlıq, yumurtalıqlar
Qalxanabənzər vəzi
Süd vəziləri
Limfa düyünləri
Hamiləliyin (dölün müayinəsi, cinsin təyini)
Neyrosonoqrafiya (1 yaşa qədər uşaqlarda beynin müayinəsi)
Timus vəzi

LOGİQ C5 yəni USM aparatı konveks, düzxətli və vaginal göstəricilərlə təchiz olunmuşdur.

Bu göstəricilər vasitəsilə orqanların rəngli və enerqetik dopplerqrafiyasını həyata keçirmək mümkündür.

Qaraciyər xəstəlikləri, öd daşı, böyrək daşları, düyünlü və diffuz zobun təyini, süd vəzi adenomaları,

kistoz törəmələri və şiş xəstəliklərinin müayinəsi yüksək dəqiqliklə həyata keçirilir.

Ana bətnində dölün həyat göstəricilərini (ürək vurğular və hərəkətliliyini), müxtəlif qüsurları, təxmini doğum tarixini və s. təyin etmək üçün LOGİQ C5 aparatı qarşınızda böyük imkanlar açır.

Uşaqlığın strukturunda yerləşməsindən asılı olmayaraq fibroma və miomaların, yumurtalıqlarda kistaların və s. təyini təkcə abdominal deyil, eyni zamanda transvaginal yolla mümkündür.

Həkim Aqşin Hüseynova vaxtında müraciət edin, yeni nəsil USM LOGİQ C5 aparatı vasitəsilə yüksək ixtisaslı tibbi müayinə alın, sağlamlığınızı vaxtında bərpa edin, uzun və xoşbəxt ömür sürün.

Əlaqə telefonu:
(050) 727-69-75

ALLAH RƏHMƏT ELƏSİN

İdris Şükürlü, Sərraf Heydərov, Nizaməddin Muradov, Şahlar Qocayev, Ramazan Quliyev, Alim Həniféyev, Yədulla Bağırov, Qədir Kərimov,
Telman Həşimova, əzizi
NATİQƏ QULİYEVANIN
vaxtsız vəfatından kədərləndiklərini bildirir başsağlığı verirlər

İLTİMAS SƏMİMİ

BİR CƏNNƏT GÖRÜNƏR DÜNYA GÖZÜNƏ

Üstünə süzülən bahar yağışı,
Acı xatirələr qoxuyur yaman.
Dərdini içində bir ömür daşı,
Uduzar mənasız xəyallar quran.

Gizlət göz yaşını görən olmasın,
Sənin kədərinə sevinən olar.
Könül arzuların vaxtsız solmasın,
Sənin də ömrünə güneş doğular.

Sağında, solunda ürək dostların,
Darıxma, gülecək tale üzünə.
Silinər qəlbindən dərdin, qubarın,
Bir cənnət görünər dünya gözünə.

BİR DASTAN OLAR

Bir də o gözlərə baxa bilmərəm,
Bahar yağışıdır süzülən yaşı.
İntizar çəkməkdən yorulub elə,
Yamandır payızı, yamandır qışı.

O gözlər dərdini açıb söyləyir,
Qəlbindən keçəni oxuyuram mən.
Alimin yazdığı bir kitab kimi,
Duyarmı ruhunu fəqət hər yetən.

Saf sevgi Leylidən, Məcnundan gəlir,
Bircə məhəbbəti anlayan ola.
Fərhad Şirin deyib qayalar çapdı,
Eşqə sadiq qalan bir canan ola.

Kərəmi yandıran Əsli eşqidir,
Sevdalı ürəklər çəkər intizar.
Daşı bu hicranı qoy car olmasın,
Düşər dildən-dilə bir dastan olar.

MƏHƏBBƏT BƏZƏN

Hönkürüb ağlayar tökər göz yaşın,
Yanar tənhalıqdan ürəyi köz –köz.
Bu dünya gözündən qaralar tamam,
Ayları, illəri ötər dözümsüz.

Düşünər bir ömür nakam eşqini,
Vaxtından bir az tez qocalıb gedər.
Görən havalanıb söyləyər belə,
Ötər saədətsiz ömür də hədər.

Əgər istəyinə yetə bilmirsə,
Bahar da qış kimi keçər ömründən.
Nakam sevgilərin taleyi belə,
Aşiqə dərd verir məhəbbət bəzən.

UNUDUB

Səni danışdıra bilmədi,
Nə intizar,
Nə möhnət,
Nə acı xatirələr...
Qırıldı içində "ümid" adlı
Bir güzgü.

Bütün arzuların
Səpələndi
Yarpaq –yarpaq yollara.
Sənə xoşbəxt deyənlər,
Göz yaşlarına inanmadı.
Susqunluğun
Ürəyini sancan ağrılar idi.
Üzün qaranlığa bürünmüş
Yer kürəsi kimi,
Taleyini oxuya bilmədim.
Balıkə talesiz doğulmusan,
Balıkə dostların səni
Unutduğun tək
Tanrı da səni unudub.

ƏN XOŞ DİLƏKLƏR

Qarışıb çaylara axıb gedəsən,
Sevincin bir dəniz kədərdən uzaq.
Sahilə çırpılan dalğalar səndən,
Səni üşütməyə nə qar, nə sazaq.

Buludlar üstündə bir çətir ola,
Səni sığallaya dəli küləklər.
Ömrünün hər anı bahara dönər,
Ay kimi nur saçə ən xoş dilləklər.

BRAZİLİYALI YAŞIL QONAQ - FEYXOA

Bu dəfə öz dadı, ətri ilə seçilən meyvələrdən biri - feyxoa haqqında danışmaq istəyirik. Bu bitki ilk dəfə onu tədqiq edən braziliyalı təbiətşünas Joao da Silva Feyxonun şərəfinə adlandırılıb.

Tərkibi faydalı elementlər - yod, C vitamini ilə zəngin olduğuna və müalicəvi təsiri yüksək olduğu üçün feyxoanı insan sağlamlığına son dərəcə müsbət təsir göstərən meyvə hesab olunur, təzyiqin və mədə-bağırsaq

xəstəliklərinin ən yaxşı əlacıdır.

Maddələr mübadiləsinin pozulması, yüksək təzyiq, qastrit, qalxanvari vəzi kimi xəstəliklərdən əziyyət çəkənlərə feyxoa və ondan hazırlanmış məhsullarından istifadə etməyi məsləhət görürlər. Tibb adamları orqanizmi yodla təmin etdiyinə görə onu hətta dəniz məhsulları ilə müqayisə edirlər.

Feyxoa özündə 93 mineral maddəni cəmləşdirir, tərkibində zəngin vitaminlərdən ibarət makro və mikro elementlər, amin turşusu da var. Feyxoa yağı müasir kosmetologiyada dəri ilə bağlı problemlərin ən əlverişli çıxış yolu hesab olunur.

Feyxoa yeganə bitkidir ki, iqlim amillərinə son dərəcə dözümlüdür. Kimyəvi dərmanlardan istifadə olunmadığı üçün feyxoa ekoloji baxımdan təmizdir.

"Lerik" qəzetinin baş redaktoru:
İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı:
Lerik şəhəri, Həzi Aslanov küç. - 1.
Tel.: (070) 200-21-54

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.
Sifariş: 191

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi:
AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935

Qəzet "Son Dakika" MMC mətbəəsində çap edilmişdir.